# "Biz heç vaxt dövlətin diqqətindən kənarda qalmamışıq"

## Prezident son fərmanı ilə Qarabağ qaziləri arasında fərq qoyulmadığını bir daha təsdiq etdi

90-cı illərin əvvəlləri idi. Azərbaycanda hökm sürən özbaşınalıq, hərc-mərclik və xaos insanları təngə gətirmişdi. Hakimiyyət uğrunda gedən mübarizələr insanların dolanışığına da təsir göstərmişdi. Bu səbəbdən Habil qərara gəldi ki, Rusiyaya gedib ailəsinin dolanışığını təmin etsin.

İşləri pis getmirdi. Hər ay qazancından ailəsinə pul göndərməklə onların dolanışığını təmin edirdi. Günlərin bir günü evlərinə telefonla zəng edərkən ona yaxın günlərdə qardaşının toyu olacağını söylədilər. Belə bir əziz gündə iştirak etmək üçün Habil Gəncəyə gəldi və qardaşının sevincinə şərik oldu.

Həmin vaxtlar Qarabağda gərgin döyüşlər gedirdi. Habil qərara aldı ki, torpaqlarımızın yağı düşməndən qorunmasında o da öz borcunu yerinə yetirsin. Hərbi komissarlığa gələndə gözlərinə inanmadı. Komissarlığa Vətənin müdafiəsinə getmək üçün yüzlərlə gənc toplaşmışdı.

Hərbi xidmətə Goranda təşkil olunmuş təlim toplantısından başladı. Təlim zamanı yüksək rütbəli bir zabitin gələrək gənclər arasında nişançı olub-olmadığını soruşanda iki nəfər qabağa çıxdı. Onlardan biri Habil Mirzəyev idi. O, bu peşəyə sovetlər birliyi dövründə Macarıstanda həqiqi hərbi xidmətdə olarkən yiyələndiyini, hətta bir neçə dəfə snayper atıcılığı yarışlarında birinci yerə çıxdığını söylədi.

Artıq bir neçə gündən sonra Habil əsgər yoldaşı Ruslanla birlikdə döyüş bölgəsinə yollandı. Hər iki nişançı "Fred" ləqəbli Milli Qəhrəman Asif Məhərrəmovun batalyonunda düşmənə qarşı döyüşlərə başladı. Həmin dövr batalyonda 33 gəncəli var idi. Onların ilk döyüşləri Ağdamın Şelli və Gülablı kəndlərindən başladı. Onu da qeyd edək ki, Habil sərrast atıcı olduğundan tez-tez onun yerini dəyişir, müxtəlif batalyonların tərkibində döyüşlərə göndərirdilər. Habil bir neçə dəfə Milli Qəhrəman Allahverdi Bağırovun batalyonunda döyüşlərdə iştirak etmişdi. Hətta bacarığı nəzərə alınaraq Habili bir neçə dəfə kəşfiyyata da göndərmişdilər. O, snayperi ilə Xocalıya kimi gedib çıxmış, Asif Məhərrəmovun və Allahverdi Bağırovun dəstəsi ilə Naxçivanik, Pircamal, eləcə də Ağdamın Ərənzəmin və Ağbulaq kəndlərinin düşməndən azad olunmasında iştirak etmişdi.



Habil Mirzəyev xasiyyətcə çox sakit adama oxşayır. Bunu onunla görüşdə də hiss etdik. Bizimlə görüşündə elə ilk sözü bu oldu: "Yaxşı olardı ki, döyüş yoldaşlarımla görüşəsiniz. Birinci Qarabağ müharibəsində baş verənləri onlar daha dəqiq danışarlar".

Buna baxmayaraq, xahiş etdik ki, yaddaşını silkələyib, o ağır günlərdən, düşmənə qarşı döyüşən oğullarımızdan biri kimi o da danışsın.

"Çox ağır günlər idi. Batalyonlar arasında əlaqələrin zəif olması çoxlu sayda könüllü əsgərimizin həlak olması ilə nəticələnirdi. Günlərin bir günü əmr gəldi ki, düşmən Drambonda iki batalyonumuzu tamamilə məhv edib. Həmin gün gecə genişmiqyaslı hücuma keçdik. Çoxlu sayda düşməni məhv etdik. Mən snayperdən açdığım sərrast atəşlə onlarca erməni əsgərini öldürdüm. Həmin vaxt Ağdamın könüllüləri də bizə qoşulmuşdular. Ağır gedən döyüşlərdə həm Drambonu, həm də Çıldıranı düşməndən geri aldıq. Ancaq düşmən strateji cəhətdən vacib olan Drambonu heç cür əldən vermək istəmir, gülləni başımıza yağış kimi yağdırırdı. Nəhayət, döyüş bir qədər səngidi. Çox yorulmuşduq. Yenicə oturub dincəlmək istəyirdik ki, ermənilər bizi minamyot atəşinə tutdular. Ara sakitləşəndə gözlərimizə inanmadıq. Hər tərəf yaralılardan və həlak olmuş əsgərlərimizdən ibarət idi. Batalyonumuzun 15 əsgəri yaralanmış, 20-yə yaxın döyüşçümüz isə şəhid olmuşdu. Mən yaralılara kömək etmək istəyəndə gördüm ki, çiynimdən, ayağımdan və qolumdan yaralanmışam. Əlimi yerə dayayıb qalxmaq istəyəndə qolumun qırıldığını gördüm. Döyüş yoldaşlarım Elçin İsmayılov və Saleh Verdiyev mənə kömək edərək mövqedən çıxardılar və Tərtər hospitalına apardılar. Yaralarımın ciddi olduğunu nəzərə alıb bir gün sonra Bakıya göndərdilər".

Hazırda Habil Mirzəyev ikinci qrup Qarabağ müharibəsi əlilidir. 350 manat Prezident təqaüdü, 420 manat pensiya alır. Dövlət başçısının bu günlər imzaladığı fərmana əsasən isə birdəfəlik yardım alacağı gözlənilir. Bütün bunlara görə minnətdarlıq edən Habil Mirzəyev sonda 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ordumuzun əldə etdiyi uğurlardan qürur duyduğunu, şəhid olmuş əsgər qardaşlarının qanlarının yerdə qalmadığını söylədi.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***